# IV BÖLMƏ.
# REGİONLARIN İNKİŞAFI MƏSƏLƏLƏRİ

UOT 332.122

*Hüseyn Qədirulla oğlu BAĞIRSOYLU*
*Naxçıvan Universiteti,*
*iqtisad üzrə fəlsəfə doktoru*
*E-mail: h.bagursoylu@nu.edu.az*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİ DİVERSİFİKASİYANIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Naxçıvan Muxtar Respublikasında aparılan iqtisadi diversifikasiyanın müasir vəziyyətinin təhlil edilməsi, yaranan müsbət meyillərin iqtisadiyyata təsirinin müəyyən edilməsi.

**Tədqiqatın metodologiyası** – Muxtar Respublikada aparılan iqtisadi diversifikasiya prosesinin qurulması və həyata keçirilməsi üsulları, onların elmi ümumiləşdirilməsi.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - təqiqat nəticəsində müəyyən edilmiş müsbət meyillərin gələcəkdə də tətbiq olunması vasitəsi ilə diversifikasiya prosesinin genişləndirilməsi və sürətləndirilməsi reallaşdırılacaqdır.

**Tədqiqatın nəticələri** – Muxtar Respublika iqtisadiyyatında diversifikasiyanın sürətləndirilməsi üçün təklif edilənlərin istifadəsi bu prosesin yüksək səviyyədə icra olunmasına təkan vermişdir. Paralel olaraq bu amillər iqtisadiyyatda innovativ üsulların tətbiqinə geniş şərait yaratmış və dinamikasını şərtləndirmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Məqalədə nəzərdən keçirilən məsələ, yəni Naxçıvan Muxtar Respublikasında iqtisadi diversifikasiyanın müasir vəziyyətinin təhlili ilk olaraq tərəfimizdən faktiki hesabat göstəriciləri əsasında orijinal xarakter daşıyaraq aparılmış və əldə olunan nəticələr yenidir.

***Açar sözlər: diversifikasiya, islahatlar, Yol Xəritəsi, inkişaf konsepsiyası, iqtisadi dinamika***

### *Giriş*

Əsası hələ 2014-2015-ci illərin böhranından əvvəl qoyulan diversifikasiya prosesləri Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın dinamik inkişaf yoluna qoyulmasında həlledici rol oynamışdır. Belə ki, 2012-ci ildə qəbul edilmiş olan “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası əsasında startı verilən diversifikasiya prosesləri səmərəli dövlət tənzimlənməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasından başlamışdır. Belə bir modelin formalaşması strateji hədəflərə nail olunmasında əhəmiyyətli rola malikdir. Dünya təcrübəsi sübut edir ki, diversifikasiya proseslərinin uğurlu səmərəli nəticələrə gətirib çıxarması məhz belə bir modelin tətbiq olunması vasitəsi ilə Norveç, Malayziya, Sinqapur, Birləşmiş Ərəb Əmirlikləri, Botsvana və s. kimi ölkələrdə özünü doğrultmuşdur. Çünki bu modelin formalaşması diversifikasiya prosesləri üçün zəruri olan, uyğun şəraitin yaradılmasını təmin edir. [1, səh 28]. Naxşıvan Muxtar Respublikasının iqtisadiyyatında həyata keçirilən iqtisadiyyatın diversifikasiyası prosesi iqtisadi dinamika prosesinin ən zəruri elementi kimi qiymətləndirilməli, onun yaratmış olduğu müsbət meyillər səmərəlilik və gəlirlilik prizmasından geniş imkanlar yaradan faktorlar kimi təhlil olunmalıdır. [2, s. 23].

Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatda inkişaf etmiş sahələrin sayı çox olduqca, inkişaf daha

da dinamik olur, diversifikasiya prosesini təşkil etmək, idarə etmək, tənzimləmək daha da asanlaşır. Nəticədə diversifikasiya fəaliyyəti genişlənir, sürətlənir və qarşıya qoyulan hədəflərə çatmaq imkanları çoxalır.

Naxçıvan Muxtar Respublikasında aparılan diversifikasiya prosesinin təhlili göstərir ki, bu prosesin sürətlə yayılma effekti iqtisadiyyatın bütün sahələrini əhatə edərək dayanıqlı dinamizm yaratmış, onun geoiqtisadi məkanda mövqeyinin möhkəmlənməsini təmin etmişdir.

**Muxtar Respublika iqtisadiyyatının makroiqtisadi göstəricilərinin dinamikasının müasir vəziyyətinin təhlili**

İstənilən iqtisadi subyektin, sahənin, sektorun, ölkənin inkişafını xarakterizə edən çoxsaylı iqtisadi göstəricilər mövcuddur. Həmin göstəricilərin səviyyəsindən, dinamikasından və s. asılı olaraq inkişafa dair xarakteristika vermək, mövcud olan mənfi və müsbət meyillərin yaranma səbəblərini müəyyən etmək, gələcək üçün proqnozlar vermək olar. Naxçıvan Muxtar Respublikasında aparılan iqtisadi diversifikasiyanın müasir vəziyyətini təhlil etmək üçün bu prosesin təsiri altında formalaşan bir sıra iqtisadi göstəricilərin dinamikasını təhlil etmək lazımdır. Nəzərə almaq lazımdır ki, Muxtar Respublikanın uzun müddət iqtisadi blokada şəraitində olmasına baxmayaraq burada iqtisadi diversifikasiya ilə bağlı fəaliyyət hələ 2014-2015-ci il böhranından əvvəl başlamışdır. Həmin dövrdə respublika iqtisadiyyatında dayanıqlığın möhkəmləndirilməsi, gələcək dövr üçün strateji məqsədlər olan davamlığın təmin edilməsi, kreditqabiliyyətliliyin yüksəldilməsi mühüm məqsəd kimi qarşıya qoyulmuşdur. Onların icra olunması inkişaf üçün əsas mənbə olan ÜDM-in həcminin artırılmasının təmin edilməsindən başlamışdır.

ÜDM-in həcminin davamlı olaraq hər il artan dinamikaya malik olması Muxtar Respublikada aparılan uğurlu, iqtisadi diversifikasiyanın bariz nümunəsidir. (Cədvəl 1)

**Cədvəl 1**

**1917-2021-ci illərdə Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş ÜDM-in və adambaşına düşən ÜDM-in dinamikası**

| № | Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| 1 | ÜDM-in həcmi (mln man) | 2701663.0 | 2773020.5 | 2839650.0 | 2907810.5 | 3016315.0 |
| | -əvvəlki ilə nəzərən dəyişmə (min manatla) | +119301.6 | +71357.5 | +66629.5 | +68160.5 | +108504.5 |
| | -əvvəlki ilə nəzərən dəyişmə %-lə | +4.61 | +2.64 | +2.4 | +2.4 | +3.7 |
| 2 | Adambaşına düşən ÜDM (manatla) | 5990.4 | 6101.3 | 6201.5 | 6310.4 | 6544.5 |
| | -əvvəlki ilə nəzərən dəyişmə (min manatla) | +210.7 | +110.9 | +100.2 | +108.9 | +234.1 |
| | -əvvəlki ilə nəzərən dəyişmə %-lə | +3.6 | +1.85 | +1.64 | +1.7 | +3.7 |

*Mənbə (3): Cədvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl göstəricilərindən aydın olur ki, təhlil edilən son beş il, yəni 2017-2021-ci illər ərzində Muxtar Respublikda ÜDM-in həcmində hər il artımla müşahidə edilən dinamika mövcud olmuşdur. Belə ki, Muxtar Respublikda istehsal edilən ÜDM-in həcmi 2017-ci ildə 2701663,0 min manat təşkil etmişdir. Onun həcmi əvvəlki il ilə müqayisədə 119301,6 min manat və ya 4,61% artmışdır.

2018-ci ildə bu göstərici 2773020,5 min manat təşkil etmiş, əvvəlki il ilə müqayisədə 71357,5 min manat və ya 2,04% artmışdır. 2019-cu ildə ÜDM-in həcmi əvvəlki il ilə müqayisədə 66629,5 min manat və ya 2,4% artaraq 2839650,0 min manat təşkil etmişdir. Dinamika növbəti ildə də davam etmişdir. Belə ki, təhlil edilən göstərici 2020-ci ildə əvvəlki il ilə müqayisədə 68160,5 min manat və ya 2,4% artaraq 2907810,5 min manata çatmışdır. Təhlil edilən sonuncu 2021-ci ildə ÜDM-in həcmi əvvəlki il ilə müqayisədə 108504,5 min manat və ya 3,7% artaraq rekord məbləğə çatmışdır.

Dünya təcrübəsindən məlum olduğu kimi iqtisadi diversifikasiyanın vəziyyətini əks etdirən ən mühüm göstəricilərindən biri ÜDM-in artan dinamikası olduğundan diversifikasiya siyasətini reallaşdıran bütün ölkələr bu göstəricinin yüksək səviyyədə təmin olunmasına çalışırlar. Bu baxımdan da demək olar ki, Naxçıvan Muxtar Respublikasında ÜDM-in artan dinamikası uğurli diversifikasiya siyasətinin aparıldığını sübut edən elementlərdən biridir.

Muxtar Respublikada aparılan diversifikasiya siyasətinin müasir vəziyyətini xarakterizə edən göstəricilərdən biri də **adambaşına düşən ÜDM-in dinamikasıdır.** Cədvəl 1-in göstəricilərindən aydın olur ki, onun səviyyəsi təhlil edilən 2017-2021-ci illər ərzində hər il artan dinamikaya malik olmuşdur. Əvvəlki il ilə müqayisədə bu göstərici 2017-ci ildə 210,7 manat və ya 3,6% artaraq 5990,4 manat, 2018-ci ildə 110,9 manat və ya 1,85% artaraq 6101 manat, 2019-cu ildə 100,2 manat və ya 1,64% artaraq 6201,5 manat, 2020-ci ildə 108,9 manat və ya 1,7% artaraq 6310,4 manat, 2021-ci ildə isə 234,1 manat artaraq 6544,5 manat təşkil etmişdir. Göründüyü kimi bu göstərici ən yüksək artım səviyyəsinə 2021-ci ildə çatmışdır. Bunun səbəbi isə 2021-ci ildə ÜDM-in rekord səviyyəyə çatması ilə əlaqədar olmuşdur.

Bu göstəricinin səviyyəsinin artması iqtisadiyyatın sahələrində iqtisadi fəallığın artmasını şərtləndirən ən mühüm göstəricilərdən biridir. İqtisadi fəallığın artması öz növbəsində sahələrdə diversifikasiyanın genişlənməsini və sürətlənməsini təmin edir. Sahələrin paralel olaraq diversifikasiya olunması isə iqtisadiyyatın bir sahə üzrə ixtisaslaşmasının qarşısını alır. [2, səh 19].

Naxçıvan Muxtar Respublikasında iqtisadi diversifikasiyanın müasir vəziyyətini xarakterizə edən göstəricilərdən biri də **özəl müəssisələrin fəaliyyət göstəriciləridir.** (Cədvəl 2).

**Cədvəl 2**

**1917-2021-ci illərdə Naxçıvan Muxtar Respublikasında özəl müəssisələrin payına düşən ÜDM-in dinamikası**

| № | İllər / Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| 1 | Muxtar Respublikada özəl müəssisələrin payına düşən ÜDM (min manatla) | 2361648.6 | 2409858.6 | 2471192.5 | 2510071.8 | 2627210.4 |
| | -əvvəlki il ilə müqayisədə dəyişmə (min manatla) (+;-) | +115284.7 | +48210.0 | +61333.9 | +38879.3 | +117738.6 |
| | -əvvəlki il ilə müqayisədə dəyişmə %-lə | +5.13 | +2.04 | +2.5 | +1.6 | +4.7 |
| 2 | Özəl müəssisələrin ÜDM-də payı (faizlə) | 87.4 | 86.9 | 87.0 | 86.3 | 87.1 |

*Mənbə(3):Cədvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 2-nin göstəricilərindən aydın olur ki, Muxtar Respublikada təhlil edilən 2017-2021-ci illər ərzində özəl müəssisələrin payına düşən ÜDM-in həcmi yüksək səviyyədə formalaşaraq 2017-ci ildə 87,4%, 2018-ci ildə 86,9%, 2019-cu ildə 87,0%, 2020-ci ildə 86,3%, 2021-ci ildə isə 87,1% olmuşdur.

Dünya təcrübəsi göstərir ki, istənilən ölkədə sahibkarlıq, özəl müəssisələrinin sayının artması, onların fəaliyyətinin genişlənməsi sonda onların iqtisadiyyata təsirini artırır, onlar iri ixracatçılara

çevrilirlər. Onlar yeni yaranarkən iri potensiala malik olmasalar da sonradan yüksək inkişaf səviyyəsinə çataraq ölkədə ÜDM-in formalaşmasında təsir gücünə malik olurlar. (4, səh 30). Onlar diversifikasiya prosesləri nəticəsində məhsuldarlığı artıraraq ÜDM-in formalaşmasında və artırılmasında fəal iştirakçıya çevrilirlər.

Cədvəl 2-nin göstəricilərindən məlum olur ki, 2017-2021-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən özəl müəssisələrin payına düşən ÜDM həcmi əvvəlki il ilə müqayisədə 2017-ci ildə 115284,7 min manat və ya 5,13% artaraq 2361648,6 min manata, 2018-ci ildə 48210,0 min manat və ya 2,04% artaraq 2409858,6 min manata, 2019-cu ildə 61333,9 min manat və ya 2,5% artaraq 2471192,5 min manata, 2020-ci ildə 38879,3 min manat və ya 1,6% artaraq 2510071,8 min manata, 2021-ci ildə 117138,6 min manat və ya 4,7% artaraq 2627210,4 min manata çatmışdır. Özəl müəssisələrin ÜDM-də payının artması və hər il artan dinamikaya malik olması özəl müəssisələrin Muxtar Respublikada aparılan diversifikasiya proseslərinin aparıcı qüvvəsinə çevrilməsini əks etdirir. Bu baxımdan da özəl müəssisələrin fəaliyyətinin genişləndirilməsi diversifikasiya prosesinin vəziyyətinə təsir edən mühüm amil kimi çıxış edir.

Muxtar Respublikada aparılan diversifikasiya proseslərinin qiymətləndirilməsi, onun müasir vəziyyətinin təhlil olunması üçün nəzərdən keçirilməli mühüm məsələlərdən biri də 2017-2021-ci illərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyətdə olan **hüquqi şəxslərin və fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin say dinamikasıdır**. Bu göstəricinin yaxşılaşması, dinamikasının mövcud olması diversifikasiya prosesləri üçün vacib olan struktur amillərinin, xüsusən də əhalinin, mövcud insan kapitalının işgüzar dövriyyəyə cəlb olunması ilə bağlı problemlərin həlli yolunda yüksək rola malikdir. Bu istiqamətdə aparılan fəaliyyət hüquqi şəxslərin sayının artırılması və eyni zamanda fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin sayının artırılması vasitəsilə diversifikasiya proseslərinin genişləndirilməsinə yönəldilmişdir. Bu baxımdan həmin göstəricilərin dinamikasının təhlili zəruridir. (Cədvəl 3).

**Cədvəl 3**

**1917-2021-ci illərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyətdə olan hüquqi şəxslərin və fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin say dinamikası**

| № | İllər / Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| 1 | Muxtar Respublikada fəaliyyətdə olan hüquqi şəxslər (ədədlə) | 1946 | 1976 | 2052 | 2086 | 2108 |
| | -əvvəlki ilə nəzərən dəyişmə (+;-) ədədlə | +43 | +30 | +76 | +34 | +22 |
| | -əvvəlki ilə nəzərən dəyişmə (%-lə) | +2.25 | +1.54 | +3.8 | +1.6 | +1.05 |
| 2 | Muxtar Respublikada fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin sayı (nəfər) | 26217 | 28537 | 32130 | 34350 | 34460 |
| | -əvvəlki ilə nəzərən dəyişmə (+;-) nəfərlə | +2171 | +2320 | +3593 | +2220 | +110 |
| | -əvvəlki ilə nəzərən dəyişmə (%-lə) | +9.02 | +8.84 | +12.6 | +6.9 | +0.32 |

*Mənbə (3): Cədvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl göstəricilərindən aydın olur ki, Muxtar Respublikda aparılan diversifikasiya prosesinin hərəkətverici qüvvəsi olan həm hüquqi şəxslərin, həm də fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin say dinamikasında artımla müşahidə edilən dinamika mövcud olmuşdur. Belə ki, 2017-2021-ci illər ərzində fəaliyyətdə olan hüquqi şəxslərin sayı əvvəlki il ilə müqayisədə 2017-ci ildə 43 ədəd və ya 2,25% artaraq 1946 ədədə, 2018-ci ildə 30 ədəd və ya 1,54% artaraq 1976 ədədə, 2019-cu ildə 76 ədəd və ya 3,8% artaraq 2052 ədədə, 2020-ci ildə 34 ədəd və ya 1,6% artaraq 2086 ədədə, 2021-ci ildə isə 22 ədəd və ya 1,05% artaraq 2108 ədədə çatmışdır.

Təhlil edilən dövr ərzində digər bir göstərici olan fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin say dinamikasında da artım müşahidə olunmuşdur. Bu göstərici əvvəlki il ilə müqayisədə 2017-ci

ildə 2171 nəfər və ya 9,02% artaraq 26217 nəfərə, 2018- ci ildə 2320 nəfər və ya 8,84% artaraq 28537 nəfərə, 2019-cu ildə 3593 nəfər və ya 12,6% artaraq 32130 nəfərə, 2020-ci ildə 2220 nəfər və ya 6,9% artaraq 34350 nəfərə, 2021-ci ildə isə 110 nəfər artaraq 34460 nəfərə çatmışdır. Bu say Muxtar Respublika iqtisadiyyatında rekord saydır. Qeyd edilən göstəricilərin dinamikası özəl sektorun davamlılığını təmin etməklə yanaşı diversifikasiya prosesinin genişlənməsinə təkan vermişdir.

Muxtar Respublikada aparılan diversifikasiya prosesinin mühüm elementlərindən biri də iqtisadiyyatda **innovativ üsulların tətbiqi** vasitəsi ilə səmərəli nəticələrə nail olunmasından ibarətdir. Bu baxımdan Muxtar Respublikada 2017-2021-ci illərdə mövcud olan bankomatların və pos-terminalların say dinamikasının nəzərdən keçirilməsi vacibdir. (Cədvəl 4)

**Cədvəl 4**

**Naxçıvan Muxtar Respublikasında 1917-2021-ci illərdə mövcud olan bankomatların və pos-terminalların sayının dinamikası**

| № | İllər / Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| 1 | Bankomatların sayı, ədədlə | 104 | 106 | 106 | 108 | 110 |
| | əvvəlki ilə nəzərən dəyişmə (+;-) %-lə | +5.1 | +1.9 | - | +1.88 | +1.85 |
| 2 | Pos-terminalların sayı, ədədlə | 1326 | 1410 | 1416 | 1420 | 1432 |
| | əvvəlki ilə nəzərən dəyişmə (+;-) %-lə | +10 | +6.3 | +0.42 | +0.28 | +0.8 |
| 3<br>3.1 | Bankomatların yerləşməsi, ədədlə<br>O cümlədən;<br>-Naxçıvan şəhərində | 58 | 59 | 59 | 60 | 61 |
| | -cəmdə xüsusi çəkisi (%-lə) | 55.76 | 55.66 | 55.66 | 55.55 | 55.45 |
| 3.2 | -rayon və kəndlərdə, ədədlə | 46 | 47 | 47 | 48 | 49 |
| | cəmdə xüsusi çəkisi (%-lə) | 44.24 | 43.34 | 43.34 | 44.45 | 44.45 |
| 4<br>4.1 | Pos-terminalların yerləşməsi, ədədlə<br>-Naxçıvan şəhərində | 612 | 650 | 653 | 655 | 662 |
| | -cəmdə xüsusi çəkisi (%-lə) | 46.15 | 46.1 | 46.11 | 46.12 | 46.22 |
| | -rayon və kəndlərdə | 714 | 760 | 763 | 765 | 770 |
| 4.2 | -cəmdə xüsusi çəkisi (%-lə) | 53.85 | 53.9 | 53.89 | 53.88 | 53.78 |

*Mənbə (3): Cədvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 4-ün göstəricilərindən aydın olur ki, aparılan diversifikasiya prosesi nəticəsində bank tərəfindən həyata keçirilən innovativ xidmət həm paytaxt Naxçıvan şəhərində, həm də rayonlarda reallaşdırılmışdır. Belə ki, Muxtar Respublikada mövcud olan bankomatların 2017-ci ildə 58-i və ya 55,76%-i Naxçıvan şəhərində, qalan 46-sı və 44,24%-i rayon və kəndlərdə fəaliyyət göstərmişdir. Təhlil edilən illər ərzində bankomatların sayı 6 ədəd artaraq 2021-ci ildə 110 ədədə çatmışdır. Onlardan 61-i Naxçıvan şəhərində, qalan 49-u isə rayon və kəndlərdə istifadə olunmuşdur.

Təhlil edilən digər bir göstərici olan pos-terminalların sayında da təhlil edilən illər ərzində dinamika olmuşdur. Belə ki, onların sayı 2017-ci ildə 1326, 2018-ci ildə 1410, 2019-cu ildə 1416, 2020-ci ildə 1420, 2021-ci ildə isə 1432 ədəd olmuşdur. Onların 2021-ci ildə yerləşməsi üzrə bölgüsü belə olmuşdur: 46,22 faiz və 662 ədəd Naxçıvan şəhərində, qalan 770 ədəd və ya 53,78%-i isə rayon və kəndlərdə yerləşmişdir. Muxtar Respublikada pos-terminalların sayı 2017-ci ildən 2021-ci ilin sonuna qədər 106 ədəd artmışdır. Qeyd edilən göstərici diversifikasiya prosesinin struktur elementi olmaqla prosesin gedişini sürətləndirmişdir.

## *Nəticə*

Naxçıvan Muxtar Respublikasında aparılan iqtisadi diversifikasiya proseslərinin nəticəsi göstərir ki, 2014-2015-ci il böhranından əvvəl başlayan bu proseslər dövlət tərəfindən müəyyən edilən

sistemli tədbirlər çərçivəsində həyata keçirilərək özünün səmərəli nəticələrini göstərmişdir. Belə ki, Muxtar Respublikada həmin dövrdən başlayaraq əsas makroiqtisadi göstəricilərin ilbəil artımla müşahidə edilən dinamikası təmin olunmuşdur. Göstəriciləri təhlil edilən 2017-2021-ci illərdə isə diversifikasiya nəticəsində ən mühüm iqtisadi göstəricilərin, o cümlədən ÜDM-in həcminin, adambaşına düşən ÜDM-in, özəl müəssisələrin payına düşən ÜDM-in həcmi artaraq rekord səviyyəyə çatmışdır. Diversifikasiyanın genişlənməsini və sürətləndirilməsini şərtləndirən sahibkarlıq və özəl strukturların inkişafı Muxtar Respublikada qarşıda duran bütün vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etmişdir. Diversifikasiya proseslərinin hərəkətverici qüvvəsinə çevrilmiş olan hüquqi şəxslərin və eləcə də fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin say dinamikası təhliil edilən prosesin yüksək səviyyədə icra olunmasına təkan vermişdir. Bu proseslər paralel olaraq iqtisadiyyatda innovativ üsulların tətbiqinə geniş şərait yaratmış və dinamikanı şərtləndirmişdir.

## ƏDƏBİYYAT

1. Bayramov V.İ. Azərbaycanda iqtisadiyyatın diversifikasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri. (Monoqrafiya). Bakı, "Qanun" nəşriyyatı, 2018, 352 səh.
2. Bağırov O.M. "İqtisadiyyatın diversifikasiyası və onun maliyyə nəticələrinin qiymətləndirilməsi". 5301.01 – "Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisasında iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı 2021, 245 səh.
3. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin materialları. Naxçıvan, 2021.
4. Xuefeng Q., Yaşar M. Export market diversification and firm productivity: evidence from a large developing country. World Development 2016

***Гусейн Гадрулла оглы Багирсойли***
***Нахчыванский Университет,***
***доктор философии по экономике***
***Электронная почта: h.bagursoylu@nu.edu.az***

### Нахчыванская Автономная Республика анализ текущего состояния

***Резюме***

**Цель исследования**-Анализ современного состояния экономической диверсификации в Нахичеванской Автономной Республике, выявление влияния возникающих тенденций на экономику.

**Методология исследования** - Методы построения и реализации процесса диверсификации экономики в Автономной республике, их научное обобщение.

**Прикладная значимость исследования**- Дальнейшее использование положительных тенденций, выявленных в результате исследования, будет способствовать расширению и ускорению процесса диверсификации.

**Результаты исследования** - Использование выдвинутых предложений по ускорению диверсификации в экономике Автономной Республики стало толчком к реализации этого процесса на высоком уровне. В то же время эти факторы создали широкие условия для применения инновационных методов и обеспечили их динамику.

**Оригинальность исследования и научная новизна** - Анализ современного состояния диверсификации экономики в Нахичеванской Автономной Республике впервые был проведен нами на основе фактических отчетных показателей и полученные результаты являются новыми.

***Ключевые слова: диверсификация, реформы, дорожная карта, концепция развития, экономическая динамика.***

***Huseyn Gadirulla Bagirsoylu***
***Nakhchivan University,***
***doctor of philosophy in economics***
***E-mail: h.bagursoylu@nu.edu.az***

**Nakhchivan Autonomous Republic analysis of the current state**

***Summary***

**The study’s goal -** to assess the current stage of economic diversification in the Nakhchivan Autonomous Republic and to assess the economic impact of emerging favorable trends.

**Research methodology** – Methods for constructing and implementing the Autonomous Republic's economic diversification process, as well as their scientific generalization.

**Practical importance of the study** - Through the continuous use of the good tendencies found in the study, the diversification process will be increased and expedited.

**Research results –** The usage of the planned proposals to speed the Autonomous Republic’s economic diversification has accelerated the process’ implementation. At the same time, these elements have conditioned the dynamics of creative methods and produced favorable conditions for their use in the economy.

**Originality and scientific novelty of the research** – The article's topic, which includes an examination of the current situation of economic diversification in the Nakhchivan Autonomous Republic, was investigated for the first time using actual reporting indicators, and the findings are novel.

***Key words: diversification, reforms, Road Map, development concept, economic dynamics.***